10.61764/lasr.2.2023.59-65

**UOT 316**

**Məftunə İsmayılova**
*doktorant, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
*maftuna_i@mail.ru*

# MƏİŞƏT ZORAKILIĞININ GENDER ƏSASLARI

*Məişət zorakılığının gender əsaslarının sosioloji əsaslarda analizi tədqiqat obyekti kimi götürülmüşdür. Məqalədə məişət zorakılığı məsələləri təhlil obyekti olaraq götürülməklə müasir ailədə cinslərarası şiddətin mahiyyəti və qarşısının alınması istiqamətindəki yeniliklər nəzərdən keçirilir. Qeyd olunur ki, müxtəlif formalara malik olan zorakılıq məişət zəminində təhlükəli sonluqlara gətirə bilir, bununla əlaqədar olaraq, cəmiyyətin bu problemin həlli məsələlərinə marağı daim yüksəlir.*

***Məqsəd*** –məişət zorakılığının gender və ailə münasbətlərinə təsiri xüsusiyyətlərinin kateqorial əsaslarının araşdırılması

***Metodologiya***–müqayisəli analiz, sintez və interpretasiya metodları vasitəsilə məişət zorakılığının məzmun və mahiyyəti, formaları tədqiq olunur

***Tədqiqatın nəticələri*** – gender əsaslı məişət zorakılığının həyatın bütün məqamlarında qadın və qızlara qarşı yönələn bərabərsizliyi, şiddət və zorakılığı ehtiva etməsinin, eyni zamanda ən müdafiəsiz kateqoriyalar hesab edilən uşaqlar, qocalar və əlillərin məişət zorakılığına məruz qalmasının, məişət zorakılığının həm şaquli (valideyn-övlad arasında), həm də üfiqi (ər-arvad, bacı-qardaş arasında) formalarda təzahür etməsinin təhlil müstəvisinə gətirilməsidir.

***Açar sözlər:*** *gender, kişi, qadın, zorakılıq, məişət zorakılığı*

## Giriş

XXI əsrdə bəşəriyyətin elmi, mədəni, sosial, siyasi və digər yönlü nailiyyətləri və tərəqqisi bir çox dəyərlərin yeni məzmun kəsb etməsinə, sosial münasibətlərin mahiyyətində dəyişikliklərə səbəb olmuşdur. Yeni dövrdə ailənin bir sosial institut kimi transformasiyası prosesi davam edir. Qadın – kişi, gender münasibətlərində bir çox bəşərpərvər irəliləyişlər əldə edilsə də, məişət zorakılığı hələ də ən çox rast gəlinən travmatik vəziyyətlərdən biri olaraq qəbul edilməkdədir.

Gender zorakılığı sosial həyatın bütün məqamlarında qadın və qızlara qarşı yönələn bərabərsizliyi, şiddət və zorakılığı nəzərdə tutur. Məişət zorakılığına məruz qalanlar hər zaman olduğu kimi ən müdafiəsiz kateqoriyalar hesab edilən qadınlar, uşaqlar, qocalar və əlillərdir. Qadınlar tərəfindən kişilərə qarşı törədilən məişət zorakılığı halları da müşahidə edilməkdədir. Ailədə məişət zorakılığı həm şaquli (valideyn-övlad arasında), həm də üfiqi (ər-arvad, bacı-qardaş arasında) formada təzahür edir.

Məişət zorakılığında şiddət edən şəxs buna haqqı olduğuna və ya bunun məqbul, əsaslandırılmış və ya bildirilməyəcəyinə inandığı zaman zorakılıq halı təkrarlanır. Bu, situasiya uşaqlarda və digər ailə üzvlərində nəsillərarası zorakılıq dövrü yarada bilər, onlar belə zorakılığın məqbul olduğunu və ya bağışlandığını düşünə bilərlər.

## Məişət zorakılığı nədir?

“Məişət zorakılığı” anlayışı ilk olaraq “zorakılıq” anlayışının və formalarının araşdırılmasını aktual edir. Hazırda zorakılıq dünya üzrə 1.6 milyon insanın ölümünə səbəb olan qlobal hadisə və əsasən 15-44 yaş arasında olan insanlar üçün ilkin ölüm səbəbi olaraq qiymətləndirilir. Statistik araşdırmalar əsasən dünyada hər dörd uşaqdan biri fiziki təzyiqə məruz qalır, hər beş qadından biri və hər on kişidən biri uşaq vaxtı zorakılığa məruz qalmış insanlardırlar. Zorakılıq – insanların bir-birlərinə qarşı müxtəlif məcbur etmə hərəkətlərinin tətbiqi kimi şərh edilir (2, s.41-52). Zorakılıq dedikdə, şəxsin fiziki və ya psixoloji gücündən istifadə edərək özünə, bir başqasına, qrupa, cəmiyyətə qarşı həyata keçirdiyi yaralanma, ölüm, psixoloji zərər vurma və ya məhrum etmə ilə nəticələnən fiziki fəaliyyəti nəzərdə tutulur (11, s. 6).

Zorakılıq cəmiyyətdə və ailədə mövcud olmasına görə qlobal və lokal səviyyələrə ayrılır. Qlobal səviyyə - müharibələr, dövlətlərarası münaqişələr; lokal səviyyə isə fərdi və sosial formalarda təzahür edir. Lokal zorakılıq insanın qarşı tərəfə öz gücündən istifadə edərək fiziki və mənəvi zərər verməsinə səbəb olan fərdi və ya ictimai hərəkətlərinin toplusu kimi izah edilir. Lokal zorakılıq yalnız qarşı tərəfə şüurlu və fiziki olaraq zərər verməklə deyil, eyni zamanda bilərəkdən, sözlü və psixoloji təzyiq göstərməklə də təzahür edir. Zorakılıq insanların ən təməl haqq və azadlıqlarına qarşı hər hansı bir şəxs tərəfindən məhdudiyyətin qoyulması və ya əlindən alınması ilə həyata keçirilən hər cür hərəkət və davranışdır (3, s.14). Zorakılıq onu törədənlərin xüsusiyyətlərinə, qurban və zorakı şəxs arasındakı münasibətlərə görə, üç geniş kateqoriyaya bölünür:

- Özünə yönələn zorakılıq;
- Şəxslərarası zorakılıq;
- Kollektiv zorakılıq.

Lokal zorakılıq forması kimi qəbul edilən məişət zorakılığı ailə daxili zorakılıq olaraq qəbul edilir. Bu zaman ailə münasibətləri və ya birgə yaşayış kimi məişət şəraitində baş verən şiddət, zorakılıq və ya digər sui istifadə halları nəzərdə tutulur. Məişət zorakılığı tez-tez cinsi partnyor tərəfindən həyata keçirilən şiddət və ya zorakılıq kimi başa düşülür. Məişət zorakılığı ailə üzvlərinin biri tərəfindən digərinə qarşı baş verə bilər. Geniş mənada məişət zorakılığı uşaqlara, valideynlərə və ya qocalara qarşı zorakılığı əhatə edir. Məişət zorakılığı bir çox formalarda - fiziki, psixoloji, emosional, iqtisadi, dini, reproduktiv və ya cinsi istismar şəklində tətbiq edilə bilər, zəif məcburedici formalardan nikahda zorlamaya və digər fiziki zorakılığa qədər dəyişə bilər, məsələn, boğulma, döyülmə, qadının cinsiyyət orqanlarının kəsilməsi, eybəcərlik və ya ölümlə nəticələnə bilən tursu atma və s. (16, s. 584–602). Məişət qətli daşqalaq, yandırma, öldürmə və cehiz ölümünü əhatə edir.

Qlobal miqyasda məişət zorakılığının qurbanlarının böyük əksəriyyəti qadınlardır və qadınlar zorakılığın daha ağır formalarına məruz qalırlar (12, s. 13). Məişət zorakılığında şiddət edən şəxs buna haqqı olduğuna və ya bunun məqbul, əsaslandırılmış və ya bildirilməyəcəyinə inandığı zaman təkrar-təkrar baş verir. Bu, situasiya uşaqlarda və digər ailə üzvlərində nəsillərarası zorakılıq dövrü yarada bilər, onlar belə zorakılığın məqbul olduğunu və ya bağışlandığını düşünə bilərlər.

Bir çox insanlar özlərini sui - istifadə edən və ya qurban kimi tanımırlar, çünki onlar öz təcrübələrini nəzarətdən çıxmış ailə münaqişələri kimi qəbul edə bilərlər. Məişət zorakılığının məlumatlandırılması, qavranılması, tərifi və sənədləşdirilməsi ölkədən ölkəyə çox fərqlidir. Bundan əlavə, məişət zorakılığı çox vaxt məcburi və ya uşaq nikahları kontekstində baş verir.

Mavili Aktaşın fikrincə, "*qadınını hədə-qorxu və fiziki güclə qorxutmaq, qadınlara və qızlara qarşı cinsiyyətlərinə görə bütün zərərli davranışlar "qadınlara qarşı zorakılıq" çərçivəsində qiymətləndirilir*" (1, s.47).

Məişət zorakılığı anlayışı "gender zorakılığı" kimi də ifadə edilir. Gender zorakılığı bir qədər geniş anlayış kimi aşağıdakı fikri ifadə edir: "*Gender əsaslı zorakılıq insanın iradəsinə zidd olaraq edilən və onun fiziki və ya psixoloji sağlamlığına, inkişafına və şəxsiyyətinə mənfi təsir göstərən hər hansı zərəri nəzərdə tutur. Bu, kişilər və qadınlar arasındakı fərqlərdən istifadə edən gender gücü bərabərsizliyinin nəticəsidir. Baxmayaraq ki, GB təkcə qadınlara və qızlara təsir etmir, əsasən bütün mədəniyyətlərdə onlara təsir göstərir. Zorakılıq fiziki, cinsi, psixoloji, iqtisadi və ya sosial-mədəni ola bilər. Sui-istifadə edənlər kateqoriyasına ailə üzvləri, icma üzvləri və mədəni, dini, hökumət və ya milli qurumlarda fəaliyyət göstərən şəxslər daxil ola bilər...*" (4, s.47).

Göründüyü kimi gender zorakılığı sosial həyatın bütün məqamlarında qadın və qızlara qarşı yönələn bərabərsizliyi, şiddət və zorakılığı nəzərdə tutduğu halda "*Məişət zorakılığı yaxınları üzərində güc və nəzarət əldə etmək məqsədilə onların iradəsinə zidd olaraq həyata keçirilən sistematik şəkildə təkrarlanan fiziki, psixoloji, cinsi, iqtisadi təsirləri*" (5, s.7) ehtiva edir. Belə demək olarsa, məişət zorakılığı mikro səviyyəli, yəni əsasən ailə-məişət münasibətləri zəminində tətbiq edilir. Onu da nəzərdə saxlamaq lazımdır ki, məişət zorakılığı yalnız qadınlara qarşı deyil,

kişilərə qarşı da törədilir. Araşdırmalara əsasən eynicinsli nikahlarda da məişət zorakılığı halları müşahidə edilir.

Məişət zorakılığına məruz qalanlar hər zaman olduğu kimi ən müdafiəsiz kateqoriyalar hesab edilən qadınlar, uşaqlar, qocalar və əlillərdir. Qadınlar tərəfindən kişilərə qarşı törədilən məişət zorakılığı halları da müşahidə edilməkdədir. Ailədə məişət zorakılığı həm şaquli (valideyn-övlad arasında), həm də üfiqi (ər-arvad, bacı-qardaş arasında) formada təzahür edir. Müxtəlif ailə tiplərində ailədə olan qız övladlarının öz anaları ilə birlikdə müxtəlif formalı zorakılıq hallarına məruz qalması geniş yayılmışdır. Ailə daxilində bütün qadınların məruz qaldığı şüddət və diskriminasiya hallarının öyrənilməsi də məişət zorakılığının gender aspektlərinə aid edilir.

Dövrümüzdə zorakılığın sosial münasibətlərin tərkib hissəsinə çevrilməsi, onun sosial institut kimi öyrənilməsini aktuallaşdırmışdır. E.M.Polyakov əmindir ki, "*Zorakılıq sosial istitut kimi müxtəlif meyarlarala təzahür edir və fiziki fəaliyyətlə və ya fiziki zorakılığın tətbiqi təhdidi kimi ifadə edilə bilər*" (13, s.177). Bu zaman zorakılıq qarşı tərəfin davranışlarının idarə edilməsi mexanizmi kimi istifadə edilir. Müəllif zorakılığı sosial institut kimi xarakterizə edərkən o, fikirdən çıxış edir ki, məhz cəmiyyətin sosial strukturu, burada hakim olan sosial dəyərlər zorakılığın mahiyyətini müəyyənləşdirir, onu sosial münasibətlərin tərkib hissəsi kimi formalaşdırır. Cəmiyyətdə müxtəlif formalarda rast gəldiyimiz zorakılıq hallarının ümumi xüsusiyyəti belədir: liderlik xüsusiyyətinə və özünü realizəetmə ehtiyacına malik olan şəxs sosial münasibətlərin tənzimlənməsi və idarə edilməsi məqsədilə istifadə edilən nəzarət – cəzalandırma – mükafatlandırma sisteminə əsaslanaraq öz üstünlüyünü nümayiş etdirməyə çalışır. Zorakılıq tətbiq edən şəxs istər hər hansı bir müəssisədə, istərsə də hər hansısa sosial qrupda və o cümlədən ailədə müxtəlif məcburetmə vasitələrinə istinad edərək, sosial, psixoloji, iqtisadi, fiziki və s. zorakılıq nümayiş etdirə bilər.

Gender əsaslı zorakılığın səbəbləri araşdırılarkən aşağıdakı amillərə diqqət çəkilməsi zəruri hesab edilir:
- müasir sosial-mədəni kontekst və dəyişən sosial şərait;
- məişət zorakılığına fənlərarası yanaşma;
- gender münasibətlərində bərabərlik konsepsiyası;
- kişi və qadınların rol və status mövqelərinin bölüşdürülməsixüsusiyyətləri;
- zorakılığın təzahürünə bioloji cəhətdən müəyyən edilmiş ilkin şərtlərdən çox, sosial-mədəni amillərin təsirinin vurğulanması;
- gender normaları, kişilik/qadınlıq stereotipləri və kişi və qadınların psixoloji fərqlilikləri və davranışların nəzərdən keçirilməsi;
- zorakılıq fenomeninin ailənin fəaliyyətinin institusional səviyyəsinin və şəxsiyyətlərarası ailə münasibətlərinin səviyyəsinin nəzərə alınması əsasında təhlil edilməsi (10, s.3-13).

Hər bir ailə özlüyündə bir model daşıyıcısıdır. Məhz ailə daxilində cinslər arası və nəsillər arası münasibətlər formalaşır və ailə üzvləri tərəfindən mənimsənilərək ötürülür. Ailə zorakılığı bir çox hallarda məişət zorakılığı kimi səciyyələndirilir. Müxtəlif formalı ailə-məişət zorakılığına, şiddətə məruz qalan yaşlılar, qadınlar və uşaqlar sosial-psixoloji reabilitasiyaya ehtiyac duyurlar. Bu zaman hansı ailə üzvünün davamlı şiddətə məruz qalması və bilavasitə həmin şəxsin deyil, bu şiddəti görərək psixoloji travma yaşayan digər ailə üzvlərinin də reabilitasiyası vacib amilə çevrilir.

Davamlı zorakılıq halları şiddətə məruz qalan və bu vəziyyətə ən azı "tamaşaçı" qismində şahid olan hər bir ailə üzvünün qorxu, həyəcan, qəddarlıq, qapalılıq və digər mənfi hisslər yaşamasına gətirir. Bilavasitə ailə ilə bağlı olan məişət zorakılığı – bir ailə üzvünün digər ailə üzvünə və ya üzvlərinə münasibətdə onların hüquqlarını, azadlıqlarını, qanuni mənafelərini pozan, onlara fiziki və ya ruhi iztirablar yaşatmağa yönələn qəsdən törədilən fiziki, psixoloji, cinsi xarakterli hərəkətlər məcmusunu ehtiva edir (6, s.1-2).

**Məişət zorakılığının formaları**

Məişət zorakılığına nadir hallarda kişilərin də məruz qalması məlumdur. Qadınlara qarşı rəsmi nikahda olduğu həyat yoldaşı, qeyri-rəsmi münasibətlərdə olduğu sevğilisi, yaşlı qadınlara

qarşı oğlu və ya oğul-nəvəsi tərəfindən zorakılıq halları tətbiq edilir. Adətən yaxın qarşılıqlı münasibətdə olduqları qadına qarşı kişilər tərəfindən həyata keçirilən zorakılıq hallarının psixoloji, fiziki, mənəvi, seksual, iqtisadi formaları fərqləndirilir.

-*Psixoloji zorakılıq* dedikdə, qadının ləyaqətini alçaltmaq, təhqir etmək, özünə hörmətinin itirilməsinə səbəb olan etinasızlıq, məzəmmət, təhqir, o cümlədən nalayiq ifadələr, kobudluq, hədə-qorxu ilə şifahi və psixi vasitələrdən istifadə etməklə zorakılıq başa düşülür (9, s.64-84).

Psixoloji zorakılıq zamanı qarşı tərəf şifahi təhqirlərə məruz qalır, şantaj edilir, çox zaman qadın üzərində nəzarəti əldə etmək üçün uşaqlara və ya başqalarına qarşı zorakılıq hərəkətləri edir, intihar edəcəyi ilə hədələnir, qurbana və ya başqalarına qarşı təhdidlər həyata keçirir, ev heyvanlarına qarşı zorakılıq və ya onların məhv edilməsi yolu ilə qorxutmağa çalışır, qadını təqib edir, onun fəaliyyətini daimi nəzarətdə saxlayır, qadının sosial dairəsinə nəzarət edir, müxtəlif resurslara çıxışını məhdudlaşdırır (sosial və tibbi yardım almaq, dostlarla ünsiyyət, təhsil, iş və s.), onu alçaldıcı hərəkətlər etməyə məcbur edir və s. Bu zorakılıq növü çox geniş yayılmışdır və demək olar ki, bütün məişət zorakılığı hallarında rast gəlinir. Təkrarlanan sui-istifadə post-travmatik stress pozğunluğuna, depressiyaya, daimi qorxuya və bəzən intihara cəhdlərə səbəb olur (5, s.7).

-*İqtisadi zorakılıq* - yalnız müəyyən tələblərlə pulun verilməsi, həyat üçün vacib resurslardan məhrum etmə, işləməyə qadağa, maliyyə nəzarəti və asılılıq, habelə pulun məhdudlaşdırılması və ya verilməsindən imtina edilməsi, əlavə olaraq xərclənmiş vəsaitlər barədə hesabatların verilməsi tələbi, ədalətsiz əmlak bölgüsü və pulun üzərinə nəzarət qoyulması kimi başa düşülür. Bir çox insanlar işləmək qadağasını qadınlara qarşı məişət zorakılığının başlıca göstəricisi kimi qəbul edirlər (9, s.64-84).

İqtisadi zorakılıq aşağıdakı formalarda da təzahür edilə bilər: uşaqları saxlamaqdan imtina, gəlirlərin gizlədilməsi, sui-istifadə edənin ailə pullarını yalnız öz ehtiyacları üçün xərcləməsi, əksər maliyyə qərarlarının müstəqil qəbul edilməsi, ailə üzvlərinin xərclərinə ciddi nəzarət və s. Çox vaxt qadınlar müxtəlif səbəblərə görə iqtisadi cəhətdən kişilərdən asılı olurlar - uşaq dünyaya gətirmək, işsizlik, işlə bağlı ixtisarlar, əmək bazarında ayrı-seçkilik və s. Digər tərəfdən, hətta ərindən çox işləyən və qazanan qadınlar da zorakılığın qurbanına çevrilə bilərlər.

İşləyən qadınların iqtisadi zorakılığa məruz qalması belə təzahür edir: çox zaman kişilər onların əmək haqqılarını tam şəkildə mənimsəyirlər və onlara xərclik vermirlər, qadınları müxtəlif işlərdə çalışmağa və hətta fahişəliyə sövq edirlər.

Avropa Birliyində qadınlara qarşı məişət zorakılığının ən çox rast gəlinən formaları – yoxsulluq və ya sosial təcrid etmə (77%) və işsizlikdir (75%).

-*Fiziki zorakılıq* güc tətbiqidir, yəni: döymə, işgəncə, əziyyət vermə, itələmək, tutmaq, atmaq, ovuc və/və ya yumruqla və/və ya yad əşyalarla vurmaq, boğmaq, təpikləmək kimi hərəkətlərlə xarakterizə olunur. Bəzi hallarda fiziki zorakılıq zamanı silahdan istifadə edilir, yandırmalar və s. tətbiq edilir. Rusiya tədqiqatçılarının məlumatlarına görə, təxminən hər üç rusiyalı qadından biri ərinin fiziki zorakılığından əziyyət çəkir. Fiziki zorakılıq qadınların sağlamlığı və həyatı üçün ciddi təhlükə yaradır. Hər il on mindən çox rus qadını ərinin və ya partnyorunun əli ilə ölür (5, s.7).

-*Seksual zorakılıq* qarşılıqlı razılıq olmadan güc tətbiqi və müxtəlif məcburetmə üsulları ilə cinsi əlaqədir. Cinsi zorakılıq – zor, hədə və ya şantaj (zorlama) yolu ilə cinsi əlaqəyə məcbur etmə, qadın üçün qəbuledilməz formada cinsi əlaqəyə məcbur etmə halları ilə müşayiət edilir. Cinsi zorakılıq çox vaxt məişət zorakılığı səviyyəsində olur və latentliyi ilə fərqlənir. Evlilikdə zorlama hələ də çoxlarının fərqinə varmaq istəmədiyi və mövcud olmasının rədd edildiyi bir cinayətdir. Problemin kökündə üstünlük təşkil edən gender stereotipləri dayanır. Nikah çox vaxt kişilərə həyat yoldaşı ilə cinsi əlaqədə olmaq istəmədiyi təqdirdə zor tətbiq etmək hüququnun verilməsi kimi qəbul edilir. 2002-ci ildə Rusiyada aparılan araşdırmaya görə, kişilərin əksəriyyəti (60%) və qadınların yarısı (50%) nikahda zorlamanın prinsipcə qeyri-mümkün olduğuna inanırlar. Eyni zamanda, sorğu edilən qadınların 18%-i əri tərəfindən cinsi zorakılığa məruz qalıb (məcburi cinsi əlaqə və/yaxud zorlama və/yaxud döyüldükdən sonra cinsi əlaqə olub) (7, s.23-27).

10.61764/lasr.2.2023.59-65

Məişət zorakılığının digər formalarından biri qadını nəzarətdə saxlamaq üçün uşaqlardan istifadə edilməsidir. Bu zaman uşaqlara qarşı fiziki və ya cinsi zorakılıq, uşaqları girov kimi istifadə etmək, uşaqları qurbana qarşı fiziki və psixoloji zorakılığa cəlb etmək, uşaq manipulyasiyasından istifadə edərək valideyn hüquqları uğrunda mübarizə aparmaq və s. ola bilər (5, s.8).

Yetkin qurbanı idarə etmək üçün uşaqlardan və ya ailənin yaşlı üzvlərindən istifadə məişət zorakılığının başqa bir növüdür. Bu zaman zorakılıq göstərən tərəf uşaqları cəzalandırmaq, onları maddi təmin etməmək, həmçinin yaşlıların evdən uzaqlaşdırılması, cismani və mənəvi incidilməsi təhdidi ilə öz tələblərini qəbul etdirə, bir sözlə psixoloji təzyiq göstərə bilər.

Vurğulamaq lazımdır ki, çox vaxt məişət zorakılığı faktı müəyyən edilirsə, bu, yuxarıda göstərilən bütün forma və hallarda özünü göstərir (9, s.64-84).

Belə ki, məişət zorakılığının əhalinin bütün qrupları üçün ümumi olan "xüsusi əlamətləri" var:

1. münasibətlərdə zorakılığın bir növü varsa, onun digər formalarının da inkişaf etməsi ehtimalı yüksəkdir;

2. bütün təzahürlərində məişət zorakılığında zorakılıq edən şəxs tərəfindən nəzarət və güc elementləri vardır;

3. zorakılığın törədilməsinə və zorakılıq dövrünün davam etdirilməsinə səbəb olan psixoloji və sosial-mədəni amillər məişət zorakılığının müxtəlif formaları üçün çox vaxt eyni olur;

4. zorakılıq nəticəsində yaranan psixoloji travma və zorakılıq qurbanlarının yaşadığı simptomlar məişət zorakılığının müxtəlif formaları üçün eynidir.

Məişət zorakılığını araşdıran İ.V. Soshnikova, vurduğu zərərin dərəcəsi ilə fərqlənən məişət zorakılığı səviyyələrinə diqqət çəkir:

"1) "Ailə zorakılığı" ailə həyatı ilə bağlı ənənəvi təsəvvürlərə görə "yaxşı niyyət"lə əsaslandırılır, zorakılıq göstərən insan əslində başqalarını özünə tabe etmək üçün adi üsullarla özünü qorumağa çalışır.

2) "Ailə qəddarlığı" aşağıdakılarla xarakterizə olunur:

a) hər hansı münaqişələrin həllində şüurlu şəkildə güc (güc-güc) üsullarından istifadə;

b) ailə üzvünə (üzvlərinə) fiziki xəsarət yetirilməsi;

c) onların azadlığının məhdudlaşdırılması.

3) Ailə üzvünün həyatına və sağlamlığına kobud şəkildə qəsd edən zorakılıq cinayət hüququ normaları ilə tənzimlənir" (15, s.11).

Məişət zorakılığı üç ardıcıl mərhələdə inkişaf edir:

Birinci mərhələ - arabir təkrarlanan gərginlik, şifahi və/yaxud emosional sui-istifadə halları ilə xarakterizə olunur.

İkinci mərhələdə - kəskin zorakılıq insidenti müşahidə olunur. Zorakılıq göstərən şəxsin hücumları o qədər güclü və dağıdıcıdır ki, onları inkar etmək mümkün deyil və qadın ona güclü təzyiq göstərildiyini etiraf edir.

Üçüncü mərhələdə - zorakılıq nümayiş etdirən şəxs peşmançılıq hissi keçirə bilər, sevən, fövqəladə xeyirxah ola bilər. O, böyük ata və ər kimi görünə bilər, hər cür kömək təklif edə bilər və bir daha heç vaxt zorakılıq etməyəcəyinə söz verə bilər. Bu, qadının ayrılmasının ən çətin olduğu dövrdür. Çünki ailədə yenidən gərginliyin yaranması və tez-tez təkrarlanmağa başlaması hər an mümkündür və zorakılığın birinci mərhələsi başlaya bilər (14, s.2).

**Nəticə**

Məhz bu xüsusiyyət ailə münaqişəsi ilə məişət zorakılığı arasındakı fərqin başlıca göstəricisi kimi qəbul edilir. Belə ki, münaqişə həll edilərək, sona çatır. Zorakılıq hallarında isə bir insan davamlı olaraq, öz mövqeyindən sui-istifadə edərək qarşı tərəfə güc tətbiq edir, onu özündən asılı vəziyyətə salmağa çalışır, fiziki və psixoloji təzyiq göstərir.

Müxtəlif tarixi və situasiya faktorları qadınların məişət zorakılığının qurbanı olmaq və qalmaq, həmçinin daha zərərli nəticələrlə üzləşmək riskini artırır.

**İstifadə edilmiş ədəbiyyat**

1.Aktaş Mavili A. Aile İçi Şiddet: Kadının ve Çocuğun Korunması. İstanbul: Elma Kitabevi. 2006, 224s.

2.Başar F., Demirci N. Toplumsal Cinsiyet Eşitsizliği ve Şiddet. // KASHED, 2015, 2(1), s. 41-52

3.Cindy L.Miller Perrin, Robin D.Perrin, Claire M.Renzetti. Violence and Maltreatment in Intimate Rebationships. Tshound Oaks. 2017, 408 s.

4. Ван дер Вёр Д., Вретхем К., Титли Г., Дьёрди Т. Гендерные вопросы. Пособие по вопросам гендерного насилия, затрагивающего молодежь. Венгрия: Совет Европы, 2007. 194 с.

5.Домашнее насилие: социально-правовой аспект. Методическое пособие. Москва: Общероссийская ассоциация женских общественных организаций «Консорциум женских неправительственных объединений», 2013, 194 с.

6.Домашнее насилие: причины и последствия. Сморгонь: УТЦСОН «ТЁПЛЫЙ ДОМ», 2с.

7.Горшкова И., Шурыгина И. Насилие над женами в современных российских семьях. // Материалы общероссийского исследования, представленные на конференции 15-16 мая 2003 г. в МГУ им. М.В.Ломоносова и Горбачев-Фонде. 82 с.

8.Gerald T. Hotaling. An Analysis of Risk Markers in Hisband of Wife Violence: The Current State Of Knowledge // Violence and Victims, Vol. 1, No 2, 1986, p.101-124

9. **Калабихина И.Е., Козлов В.А.** Домашнее насилие в отношении женщин в современной России: влияние социально-демографических характеристик супругов на распространенность насилия // Научные исследования экономического факультета. Электронный журнал. 2009. №1, с. 62-84.

10.Клёцина И. С. Современное состояние и перспективы исследований гендерных отношений в сфере социологического и психологического знания // Женщина в российском обществе. 2013. № 2. С. 3—13

11. Merton T. Gandhi ve Şiddet Dışı Direniş. İstanbul: Kaknüs yayınları.2017,128 s.

12.Moos, R.H.; Billinop, A.B. Children of alcoholics during the recovery process: Alcoholic and matched control families. // Addictive Behaviors. 1982, p: 115–164

13.Поляков Е.М. Насилие как социальный институт: возникновение и эффективность в архаичных и современных обществах // Научные ведомости. Серия Философия. Социология. Право.2014, №9 (180). Выпуск 28,с.176-184

14.Пособие для судей судов по уголовным делам на тему: «Домашнее насилие». Ташкент: Organization for Security and Co-operation in Europe, 2020, 86 с.

15.Сошникова И.В. Насилие в семье в современной России: социологический анализ. Екатеринбург: ГОУ ВПО «Уральский государственный университет им. А. М. Горького». 2011, 21 с.

16."The Satir Model: Yesterday and Today" edited by Sharon Loeschen (1998), pp. 69-72

**Мафтуна Исмаилова**

**ГЕНДЕРНАЯ ОСНОВА ДОМАШНЕГО НАСИЛИЯ**

***РЕЗЮМЕ***

В качестве объекта исследования взят анализ гендерной основы домашнего насилия на социологической основе. В статье, взяв в качестве объекта анализа проблемы домашнего насилия, рассматриваются природа межгендерного насилия в современной семье и инновации в направлении профилактики. Отмечается, что насилие различных форм может привести к опасным последствиям в домашнем хозяйстве, в связи с чем интерес общества к решению данной проблемы постоянно возрастает.

***Цель*** - рассмотреть категориальную основу домашнего насилия и характеризовать его влияния на гендерно-семейные отношения.

***Методология.*** Содержание, сущность и формы домашнего насилия изучаются методами сравнительного анализа, синтеза и интерпретации.

***Результаты исследования*** - Домашнее насилие по признаку пола включает в себя неравенство и насилие в отношении женщин и девочек на всех этапах жизни. При этом дети, пожилые люди и инвалиды, считающиеся наиболее уязвимыми категориями, b xfcnj подвергаются домашнему насилию. Насилие в семье проявляется как в вертикальной (родитель-ребенок), так и в горизонтальной (супружеская, сиблинговая) формах.

***Ключевые слова:*** *гендер, мужчины, женщины, насилие, насилие в семье.*

**Maftuna Ismailova**

**THE GENDER BASIS OF DOMESTIC VIOLENCE**

**ABSTRACT**

The object of the study is an analysis of the gender basis of domestic violence on a sociological basis. The article, taking the problem of domestic violence as an object of analysis, examines the nature of intergender violence in the modern family and innovations in the direction of prevention. It is noted that violence of various forms can lead to dangerous consequences in the household, and therefore the interest of society in solving this problem is constantly increasing.

***Purpose*** **-**The goal is to consider the categorical basis of domestic violence and characterize its impact on gender-family relations.

***Methodology***. The content, essence and forms of domestic violence are studied by methods of comparative analysis, synthesis and interpretation.

***Findings of the study*** - Gender-based domestic violence includes inequality and violence against women and girls at all stages of life. At the same time, children, the elderly and the disabled, who are considered the most vulnerable categories, b xfcnj are subjected to domestic violence. Domestic violence manifests itself in both vertical (parent-child) and horizontal (marital, sibling) forms.

***Keywords:*** *gender, men, women, violence, domestic violence.*